**Dövlət Statistika Komitəsində "Kənd təsərrüfatının sınaq siyahıyaalınması" mövzusunda seminar keçirilmişdir**



27 may 2014-cü il tarixində Dövlət Statistika Komitəsində Kənd təsərrüfatı və ekologiya statistikası şöbəsi tərəfindən "Kənd təsərrüfatının sınaq siyahıyaalınması" mövzusunda istifadəçilərlə seminar keçirilmişdir.

Seminarda bir sıra dövlət qurumlarının nümayəndələri iştirak etmişdir.

Görüş zamanı seminar iştirakçılarına kənd təsərrüfatının sınaq siyahıyaalınmasının keçirilməsi ilə bağlı lazımi məlumatlar verilmiş və onun keçirilməsini zəruri edən hallar açıqlanmışdır. Bununla yanaşı, uçotun aparılması üçün formaların doldurulmasına dair göstərişlər də verilmişdir.

Seminarda "Rəsmi statistika haqqında" Azərbaycan Respublikasının Qanununa, Nazirlər Kabinetinin 28 dekabr 2013-cü il tarixli 357 nömrəli Qərarına və Dövlət Statistika Komitəsi Kollegiyasının kənd təsərrüfatının siyahıyaalınmasının keçirilməsi ilə əlaqədar müvafiq qərarlarına istinad edilmiş və ondan irəli gələn hüquq və vəzifələr, habelə Dövlət Proqramları çərçivəsində kənd təsərrüfatı statistikası ilə bağlı görülmüş və görüləcək işlər, beynəlxalq təcrübə, BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı və digər təşkilatlarla əməkdaşlıq barədə geniş məlumat verilmişdir.

Sonda seminar diskussiya xarakterli olmuş, iştirakçıları maraqlandıran suallar ətraflı cavablandırılmışdır.

